**UOT 327.5**

# VƏTƏN MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCAN RESPUBLİKASININ SUVERENLİYİNİN BƏRPASI

**Üzeyir MUSTAFAYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 16 oktyabr 2023; çapa qəbul edilmişdir: 16 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.

Received: 16h of October, 2023; accepted: 16th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *Vətən müharibəsi, Qarabağ, Azərbaycan, Ermənistan, suverenliyin bərpası*

## Giriş

Məqalədə müharibə və post-müharibə dövründə Azərbaycanın daxili və xarici siyasəti araşdırılır. 2020-ci il bütün dünyada olduğu kimi, Azərbaycan üçün də mühüm hadisələrin baş verdiyi il oldu. Şübhəsiz ki, Azərbaycanın xarici siyasəti baxımından 2020-ci ilin ən mühüm hadisəsi sentyabrın 27-də başlayan və 44 gün davam edən müharibə nəticəsində, işğal olunmuş torpaqların azad edilməsi əməliyyatıdır. 2020-ci il sentyabr ayının 27-dən noyabr ayının 10-na kimi davam edən İkinci Qarabağ Müharibəsi, 30 ilə yaxın bir müddətdə diplomatiya yolu ilə həllini tapmayan Qarabağ münaqişəsini, Azərbaycan ordusunun müstəsna uğurları sayəsində ölkənin tarixi qələbəsi ilə sonlandırmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli bəyanatdakı maddələr tərəf dövlətlər üçün fərqli nəticələrə və mənalara malikdir. Əslində, razılaşma Rusiya və Azərbaycan üçün uğurlu sayılsa da, Ermənistan üçün bunun əksi olduğu açıq-aydın görünür. Post-müharibə dövründə belə tarixi məğlubiyyətdən nəticə çıxarmayan Ermənistan tərəfindən şərti sərhəd boyunca dəfələrlə təxribatlara cəhd olunmuşdur. İmzalanmış üçtərəfli bəyanatın bir qisim bəndləri icra olunsa da, digər bir qismi hələ də icra olunmamaqdadır. Suverenliyimizin tam bərpası üçtərəfli bəyanatın müvafiq bəndlərində öz əksini tapsa da, Azərbaycan Respublikası tərəfindən bu bəndin icrası üçün anti-terror əməliyyatları aparılmış və son nəticədə Ermənistan yenidən bu öhdəliyi icra etməyə məcbur olmuşdur. Eynilə, üçtərəfli bəyanatın imzalanmasından sonra olduğu kimi, bu öhdəliyin də icrasından dərhal sonra Ermənistanda kütləvi iğtişaşlar başlamışdır.

## 1. 2016-cı ildə Azərbaycan və Ermənistan arasında vüsət alan Qarabağ münaqişəsi

2016-cı ilin aprelin 2-5 tarixlərində (4 günlük Müharibə) iki ölkə arasındakı vəziyyət qaynar müharibə həddinə çatmış və qarşıdurmalar 200-ə yaxın insanın ölümünə səbəb olmuşdur. Aprel döyüşləri kimi də tanınan bu müharibə nəticəsində Azərbaycan 6 strateji əhəmiyyətli təpəyə nəzarəti ələ keçirmiş və son illərdə ilk dəfə olaraq cəbhə xəttində Azərbaycanın xeyrinə dəyişiklik baş tutmuşdur (8, s. 5).

2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin şimalında yerləşən Tovuz rayonu ərazisində başlayan və bir neçə gün davam edən münaqişələr göstərdi ki, Qarabağ münaqişəsi beynəlxalq aləmdə ümumilikdə dondurulmuş münaqişə kimi müəyyən edilsə də, əslində hər an partlamağa hazır olan uzunmüddətli münaqişədir. Bu kontekstdə 12-16 iyul tarixləri arasında baş verən döyüşlər və onun səbəblərini araşdırmaq, 27 sentyabr müharibəsinə aparan prosesin üzə çıxarılması baxımından da əhəmiyyətlidir. 2019-cu ildə tərəflər arasında yeni danışıqların başlayacağına ümidlərin artdığı bir vaxtda, Ermənistanın müdafiə naziri David Tonoyan 2019-cu il martın 30-da "torpaq" əvəzinə "yeni torpaqlar uğrunda yeni müharibə" doktrinasını qəbul etdiyini

* doktorant, *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*e-mail*: u.mustafayev@konullu.az

bəyan etdi. Ermənistanın müdafiə naziri çıxışında daimi müdafiə vəziyyətindən əl çəkəcəklərini və bölgədə əməliyyat apara biləcək bölmələrin sayını artıracaqlarını açıqladı. Bununla belə, Paşinyan faktiki olaraq Madrid prinsiplərini daha tanımadığını və işğal olunmuş Qarabağın Ermənistanın bir hissəsi olduğunu bəyan etdi. Bu irredentist iddia Minsk qrupu həmsədrlərinin himayəsi altında keçirilən beynəlxalq danışıqların məqsəd və formasına, o cümlədən beynəlxalq hüququn prinsiplərinə zidd idi (5). Göstərilən reaksiyalardan sonra, Paşinyan 2020-ci il fevralın 13-də Berlində keçirilən görüşdə Azərbaycanın Qarabağı işğaldan azadetmə əməliyyatını Ermənistana hücum kimi qiymətləndirəcəklərini, Qarabağın Ermənistanın qarantında olduğunu və başqa heç nə deməyə ehtiyac olmadığını bildirdi.

Bu ümumi çərçivəni nəzərə alaraq, 2016-cı ilin aprelindən etibarən tərəflər arasında artmaqda olan gərginlik, 2019-cu ildə Ermənistanın açıq şəkildə yeni ərazi iddiaları və Azərbaycanın suverenliyinə qarşı bəyanatları ilə özünün pik səviyyəsinə çatdı. 2020-ci ilin iyuluna qədər iki dövlət arasındakı gərginlik artmağa davam etdi. İyulun 12-də baş vermiş münaqişəyə nəzər saldığımız zaman bəzi məqamları vurğulamaq lazımdır. Əvvəla, bu münaqişə Qarabağ cəbhəsində deyil, iki dövlətin sərhəd xəttinin şimalında yerləşən Tovuz rayonunda baş verib (8, s.6).

Toqquşmaların baş verdiyi bölgə “Bakı-Tbilisi-Ceyhan” neft boru kəmərinin (BTC), “TANAP” və “TAP”-a (“Trans-Adriatik” boru kəməri) birləşdirən “Cənubi Qafqaz Təbii Qaz Boru Kəməri” və “Bakı-Tbilisi-Qars” marşrutuna çox yaxındır. Bu kontekstdə münaqişəni başladan tərəf kimi görünən Ermənistanın arxasında Rusiyanın dayandığına dair fərziyyələrin də, bu əlaqə ilə ortaya çıxdığı düşünülə bilər. Məlum olduğu kimi, Rusiyanın əsas strateji hədəflərindən biri də, Avropa enerji bazarında payını saxlamaq və artırmaqdan ibarətdir. Bununla belə, Aİ və Türkiyənin ümumi qaz istehlakında Rusiya qazının payı getdikcə azalır, çünki Aİ bazarı tədricən alternativ enerji mənbələrinə yönəlir; COVID19 pandemiyası Yaxın Şərqdən LNG baxımından enerji istehlakını və əlavə qaz tədarükünü məhdudlaşdırır. Bunlardan əlavə, Azərbaycan qazının Bolqarıstan, İtaliya və Yunanıstan bazarlarına çıxması Aİ ölkələrinin Rusiya qazından asılılığını azaldır. Eyni zamanda, Rusiya qazını birbaşa Türkiyəyə nəql edən “Mavi Axın” boru kəməri 2020-ci ilin may ayından fəaliyyətini dayandırıb ki, bununla da Türkiyənin Rusiyadan aldığı təbii qazın asılılığına son qoyulub. Azərbaycan isə Türkiyə bazarında öz payını artırmağı bacardı və tədricən Rusiyanı sıradan çıxarmağa başladı. Bu kontekstdə 2020-ci ilin yanvar-iyun ayları arasında Azərbaycan Türkiyəyə 6,36 milyard kubmetr təbii qaz ixrac edib (ümumi qaz alışının 23%-i) və bununla da tədarükçüləri arasında lider olub.

Nəticədə ermənilərin Azərbaycana hücumunun Qarabağdan kənarda, boru kəməri marşrutlarına yaxın olan Tovuz rayonunda baş verməsi Rusiyanın enerji nəqli xətti layihələrinin inkişafının qarşısını almaq məqsədi çərçivəsində hesab edilə bilər. Baş verən bu hadisələr Ermənistanın bu regionda törətdiyi təxribatın səbəblərindən biri kimi görünə bilər (8, s. 10).

Nəhayət, 2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan sərhədində başlayan münaqişələr sentyabrın 27-də müharibəyə çevrildi. Ermənistanın cəbhə boyunca təxribatları və Qarabağdakı erməni işğalının sonlandırılması məqsədilə başlayan və 44 gün ərzində davam edən müharibə 10 noyabr 2020-ci ildə elan edilən razılaşma ilə başa çatdı. Azərbaycanın strateji əhəmiyyətli Şuşa şəhərini işğaldan azadetməsi nəticəsində İrəvan administrasiyası məğlubiyyətlə barışmalı və Qarabağdan tamamilə geri çəkilməli oldu. Ermənistanın baş naziri Nikol Paşinyan razılaşmanın xalqı üçün ağrılı olduğunu, lakin müharibənin gedişi nəticəsində ordunun təkidi ilə bu qərarı qəbul etdiyini bəyan etdi. Rusiyanın vasitəçiliyi ilə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında imzalanan memorandumla Cənubi Qafqazda 30 ildir davam edən status-kvo pozuldu və yeni proses başladı (4).

Bəyanat çərçivəsində Azərbaycan hərbi yolla işğaldan azad etdiyi Füzuli, Cəbrayıl, Zəngilanvə Qubadlını qorudu, əlavə olaraq isə Ermənistan Ağdam, Laçın və Kəlbəcər şəhərlərindən çəkilməyə məcbur oldu. Ermənistanın geri çəkilməsi ilə bağlı konkret qrafik müəyyənləşdirildi. Prosesin sonunda Azərbaycan Birinci Qarabağ Müharibəsində itirdiyi torpaqların bir hissəsini müharibə, bir

hissəsini isə diplomatiya yolu ilə geri ala bildi (3).

## 2. Azərbaycan və Türkiyə arasındakı siyasi əməkdaşlığın Qarabağ probleminə təsiri

Türkiyənin Qarabağ problemində Azərbaycana dəstəyi danılmazdır. İki ölkə arasında "bir millət, iki dövlət" şüarı ilə səsləşən xüsusi ikitərəfli münasibətlər var. Ermənistan silahlı qüvvələrinin mühüm enerji mərkəzi olan Tovuzda baş verən ilk hücumdan sonra, Azərbaycanın strateji tərəfdaşı olan Türkiyənin bütün imkanları ilə Azərbaycana dəstək verməsi, şübhəsiz ki, münaqişənin həllini təmin edən ən mühüm amillərdən biridir (5). Türkiyə ilə Azərbaycan arasında 2010-cu ildə imzalanmış "Strateji Tərəfdaşlıq" və "Qarşılıqlı Yardım" sazişi çərçivəsində iki ölkə hər hansı birinə qarşı, hər hansı bir hücum olacağı təqdirdə bir-birinə bütün imkanları ilə dəstək olmaq öhdəliyi götürüb. Bu kontekstdə Türkiyə münaqişənin əvvəlindən sonuna kimi siyasi və diplomatik baxımdan Azərbaycanı dəstəklədi. İHA-ların, PUA-ların və Türkiyənin müdafiə sənayesinin bir çox digər inventarlarının Azərbaycanda olması müharibənin gedişatını əhəmiyyətli dərəcədə Azərbaycanın xeyrinə çevirdi və Azərbaycana üstünlük təmin etdi (3).

Azərbaycanın hərbi əməliyyatları indiyədək Türkiyə tərəfinin yüksək səviyyəli bəyanatları ilə çox açıq şəkildə dəstəklənib. Prezident Rəcəb Tayyib Ərdoğan türk millətinin hər zaman olduğukimi bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu və bundan sonra da həmrəyliklərini gücləndirəcəklərini bildirdi. Eyni şəkildə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında da, "Azərbaycan öz xalqını və ərazi bütövlüyünü qorumaq üçün mütləq özünümüdafiə hüququndan istifadə edəcək. Bu çərçivədə Türkiyə hər zaman tam dəstək məntiqi ilə Azərbaycanın yanındadır" Xarici İşlər naziri Mövlud Çavuşoğlu bu açıqlamanı "Biz həm meydanda, həm də masa başında sevimli Azərbaycanımızın yanındayıq" sözləri ilə yekunlaşdırdı (6).

Ermənistan rəhbərliyi tərəfindən Azərbaycan Respublikasının suverenliyinə qarşı yönəlmiş təxribatçılıq fəaliyyəti, müharibədən sonrakı dövrdə də davam etmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, Qarabağda Rusiya Sülhməramlı Kontingentinin nəzarəti altında olan ərazilərdə Ermənistan Silahlı Qüvvələrinə aid silahlı birliklər tərəfindən terror aktları törədilmişdir. 2022-ci ilin 12 sentyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlara başlanılmışdır. Azərbaycan ordusu tərəfindən atılan qətiyyətli cavab addımları nəticəsində 12-14 sentyabr 2022-ciil tarixləri arasında düşmən təxribatının qarşısının alınması zamanı 282 nəfər yaralanmış, 80 nəfərisə şəhid olmuşdur. Tarixdə "ikigünlük müharibə" kimi də qeyd olunan əməliyyatların nəticəsində Ermənistan silahlı qüvvələri geri çəkilməyə məcbur olmuşdur.

## 3. Azərbaycan Respublikası suverenliyinin təmin edilməsi istiqamətində aparılan işlər

44 günlük müharibədən ötən bir neçə il ərzində Azərbaycan Respublikası tərəfindən istər diplomatik, istərsə də hərb meydanında atılan uğurlu addımlar ölkənin ərazi suverenliyinin tam təmininə hesablanmışdır. Müharibədən dərhal sonra üçtərəfli bəyanata müvafiq olaraq, Laçın şəhərindən keçməmək şərti ilə alternativ yolun çəkilməsinə başlanılmışdır. Cəmi 1 il 8 ay sonra yolun tikintisi başa çatdırılmış və Laçın şəhərindəki qanunsuz məskunlaşmanın sonlandırılması üçün 5 avqust 2022-ci il tarixinədək möhlət tanınmışdır. Lakin ölkə başçısının da vurğuladığı kimi erməni sakinlərinin müraciəti əsasında Azərbaycan Respublikası tərəfindən bir daha humanistlik nümayiş etdirilmiş və şəhərin boşaldılması üçün tanınmış möhlətin müddəti 25 avqust 2022-ci il tarixinədək uzadılmışdır. 2022-ci il 26 avqust tarixində Azərbaycan tərəfi Laçın şəhərinə, o cümlədən Sus və Zabux yaşayış məntəqələrinə daxil olmuşdur. Bu əlamətdar hadisə nəticəsində Laçın şəhərinin 30 il müddətində davam edən işğalına son qoyulmuşdur (11).

Suverenliyimizin tam şəkildə təmin olunması istiqamətində aparılan işlər addım-addım bir-birini izləmişdir. Yalnız humanitar məqsədlər üçün istifadəsi nəzərdə tutulan Laçın dəhlizinin Ermənistan tərəfindən hərbi yüklərin daşınması və Qarabağda qanunsuz məskunlaşan ermənilərin silahlandırılması məqsədilə də, istifadə olunmuşdur. Eləcə də təbii sərvətlərimizin talan olunaraq Ermənistana daşınması, bu dəhliz üzərindən icra edilmişdir. Sərvətlərimizin qanunsuz şəkildə

talanmasının qarşısının alınması məqsədilə Azərbaycan ekofəalları, ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən Laçın-Şuşa-Xankəndi yolu üzərində etiraz aksiyalarına start verilmişdir. 138 gün fasiləsiz şəkildə davam edən dinc aksiyaya baxmayaraq, Ermənistan tərəfi Azərbaycan Respublikasının ərazisindəki öz qeyri-qanunu əməllərini davam etdirmişdir. Buna cavab olaraq, 2023-cü il 23 aprel tarixində Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində "Laçın" sərhəd-buraxılış məntəqəsi qurulmuşdur. Məntəqənin qurulması ilə Azərbaycan öz ərazi bütünlüyünü tam bərpa etmişdir.

Ermənistan tərəfindən törədilən silahlı təxribatlar və ərazilərimizə qanunsuz daşınmalar dayandırılsa da mina terroru davam etməkdə idi. Qarabağda törədilmiş mina terroru suverenliyimizə qarşı təhdid kimi qiymətləndirilə bilər. 19 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının olduğu "Kamaz" markalı nəqliyyat vasitəsi həmin gün Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edərkən, Xocavənd rayonunun Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazidə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamış, törədilmiş terror aktları nəticəsində 7 nəfər DİN-in əməkdaşı yerindəcə həlak olmuşdur (10). Baş vermiş bu hadisə terror aktı kimi qiymətləndirilmiş və cinayət işi açılmışdır. Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli anti-terror tədbirlərinə başlanıldı. Lokal anti-terror əməliyyatının ilk dəqiqələrindən etibarən silahlı qüvvələr tərəfindən Ermənistan ordu birliklərinin səngərləri, döyüş mövqeləri hədəf alınaraq məhv edilmişdir. Anti-terror əməliyyatı yalnız legitim hərbi hədəflərə qarşı keçirilmişdir.

21 sentyabr 2023-cü il tarixində Qarabağın erməni sakinləri ilə Azərbaycan tərəfi arasında Yevlax şəhərində görüş keçirildi. Məhsuldar keçən görüşdən sonra 25 sentyabr 2023-cü il tarixində Xankəndi şəhərinin enerji təminatı birbaşa şəkildə Azərbaycan tərəfindən aparılmağa başlanıldı. Baş vermiş bu hadisələr Qarabağdakı erməni seperatist qüvvələrin məğlubiyyəti, onların qanunsuz məskunlaşması və silahlı birliklərin terror fəaliyyətinin sonlanması deməkdir.

Azərbaycan Respublikası öz torpaqlarını azad etmək və tam suverenliyini bərpa etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə, Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür.

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" 2022-ci ilin noyabrında Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmişdir.

## Nəticə

Nəticə olaraq, Azərbaycan Respublikası 30 il müddətində beynəlxalq hüquq və vasitəçilərin fəaliyyəti nəticəsində sülh yolu ilə Qarabağın işğaldan azad edilməsini gözlədiyi halda, Ermənistanbu

işğalı "əbədiləşdirmək" üçün addımlar atırdı. İkinci Qarabağ müharibəsi tarixi zəruriyyət və eyni zamanda tarixi ədalət idi. Məhz bu tarixi zəruriyyətin həm hərbi, həm də siyasi baxımdan düzgün zamanda icra olunması qələbənin əsasını təşkil edən komponentlərdəndir. 10 noyabr 2020- ci il bəyanatının müddəalarından olan Ermənistan silahlı qüvvələrinin tam şəkildə Qarabağdan çıxarılmasını Azərbaycan Respublikası üç il gözlədi. Lakin Ermənistan tərəfindən Qarabağdakı ordunun maddi-texniki təminatının yaxşılaşdırılması və bu ordu qalıqları tərəfindən davamlı şəkildə baş tutan terror aktları bir daha sübut etdi ki, Ermənistan tərəfi yalnız məcburetmə prinsipi tətbiq olunduqda məsuliyyətini anlayır və öz üzərinə düşəni icra etməyə məhkum olur. İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə regionun gündəliyində duran əsas məsələlər; üçtərəfli bəyannamədəki digər maddələrin icrası, xüsusilə Zəngəzur dəhlizinin açılması, Azərbaycan və Ermənistan arasında beynəlxalq s əviyyədə tanınmış sərhədlərin dəqiqləşdirilməsi, Azərbaycan və Türkiyənin təklif etdiyi regional altıtərəfli platformanın qiymətləndirilməsi kimi formalaşmışdır.

Əlavə olaraq artıq suverenliyini tam şəkildə bərpa etmiş Azərbaycan, Qarabağda erməni əhalisinin yaşadığı ərazilərdə infrastukturun yenidən qurulmasına, respublikada fəaliyyət göstərən dövlət qurumlarının bu ərazilərdə də fəaliyyətinin bərpasına, o cümlədən reinteqrasiya prosesindən irəli gələn digər məsələlərin həllinə xüsusi diqqət ayıracaqdır. Qarabağ və Şərqi Zəngəzur bölgəsinin uzunmüddətli işğaldan sonra tam şəkildə yenidən qurulması da respublikanın əsas prioritetlərindəndir. Hadisələrin indiyədək olan axını göstərir ki, Azərbaycan Respublikası çox qısa zamanda hədəfləmiş olduğu bütün prioritetləri icra etmək gücünə malikdir.

## ƏDƏBİYYAT


1. Askeroğlu S. Ermenistan'ın Yeni Saldırı Stratejisi. Ankara yayınevi, 2020, 190 s.
2. Aslanlı A. Tarihten Günümüze Karabağ Sorunu. Avrasya yayınevi, 2001, s. 393-430.
3. Boyraz H. M. ve Güngörmez O. "Karabağ Zaferinin Anatomisi, 2020. (https://www.setav.org/karabag-zaferinin- anatomisi)
4. Çalışkan B. 2. Karabağ Savaşı ve Güney Kafkasya'da Yeni Dönem (https://insamer.com/tr/2-karabag-savasi-ve-guney-kafkasyada-yeni-donem_3524.html) 2020.
5. Ergun A. ve Aliyev A. An Account on Karabakh War: Why Now and Then What?", Panorama (https://www.uikpanorama.com/blog/2020/11/09/an- accoun ton-karabakh-war- why-now-and-then-what/), 2020.
6. Hürriyet. Cumhurbaşkanı Erdoğan: Türk milleti Azerbaycanlı kardeşlerinin yanındadır (https://www.hurriyet.com.tr/dunya/cumhurbaskani-erdogan-turk-milleti-azerbaycanli-kardeslerinin- yanindadir-41622057), 2020.
7. Kuloğlu A. "Belirsizlikler ve Hatalar (https://stratejikguvenlik.blog/ 2020/11/20/gundem-analizi-e-tumg-armagan-kuloglu-belirsizlikler-ve- hatalar)// 2020
8. Tuncel T. K. Azerbaycan-Ermenistan Hattında Düşmeyen Gerilim: Temmuz 2020 Tovuz Çatışması Karadeniz: 2020 Gelişmeleri Işığında Bölgesel Değerlendirmeler. 2020, s.7
9. Zorlu K. Karabağ'da varılan mutabakat ne anlama geliyor? 2020 (https://www.haberturk.com/yazarlar/prof-dr-kursad-zorlu/2864811-karabagda-varilan-mutabakat-ne-anlama-geliyor),
10. https://mod.gov.az/az/news/azerbaycan-respublikasinin-mudafie-nazirliyinin-melumati- 42421.html
11. https://president.az/az/articles/view/57293



***Резюме***

***Узеир Мустафаев***

***Восстановление суверенитета Азербайджанской Республики после гражданской войны***

Целью данного исследования является создание основы для обзора периода после Отечественной войны в Азербайджане. Карабахский конфликт представлял собой этнический и территориальный конфликт между Азербайджаном и Арменией, имеющий почти двухвековую историю. Армения оккупировала 20 процентов

территории Азербайджана, включая Нагорный Карабах, без каких-либо юридических оснований почти тридцать лет, и эта проблема уже много лет ждет своего решения при посредничестве международных институтов. С окончанием Второй Карабахской войны 8 ноября 2020 года Азербайджан освободил свои земли от вражеской оккупации. 44-дневная война, завершившаяся декларацией, подписанной Азербайджаном и Арменией, считалась великой победой Азербайджана и тяжелым поражением Армении. Хотя геополитическое уравнение на Южном Кавказе изменилось после Второй Карабахской войны, победа Азербайджана открыла новые области сотрудничества, новые транспортные коридоры и точки соприкосновения в регионе. С этой целью, прежде всего, исследуются географические границы и экономические ресурсы региона «Карабах». Таким образом пытаются понять, что означает упомянутый регион для обеих стран. Затем рассматриваемый регион обсуждается с точки зрения его исторической целостности с точки зрения демографической структуры и правящих политических сил. На этом этапе исследуется, являются ли упомянутые стороны реальным источником проблемы и роль других возможных субъектов, которые спровоцировали проблему. Затем оцениваются шаги, предпринятые в направлении решения упомянутой проблемы, нарушений, Второй карабахской войны, достигнутые результаты и мирный процесс. Кроме того, в нашем исследовании рассматривается важность мира для стран региона.

В статье основное внимание уделяется реализации декларации после Второй Карабахской войны, а также долгосрочной миротворческой работе Азербайджана в регионе с использованием «принципа принуждения», который принят в качестве международных принципов. В статье изучен этап прекращения оккупации Азербайджана, восстановления территориальной целостности и полного восстановления суверенитета Азербайджана.

**Ключевые слова:** *Отечественная война, Карабах, Азербайджан, Армения, восстановление суверенитета*

***Summary***

***Uzeyir Mustafayev***

***The Restoratıon of the Sovereıgnty Republic of Azerbaıjan After the Cıvıl War***

This study aims to create a framework for an overview of the period after the Azerbaijani Patriotic War. The Karabakh conflict was an ethnic and territorial conflict between Azerbaijan and Armenia with a history of nearly two centuries. Armenia has occupied 20 percent of the territory of Azerbaijan, including Nagorno-Karabakh, without any legal basis for nearly thirty years, and this problem has been waiting for its solution through the mediation of international institutions for many years. With the end of the Second Karabakh War on November 8, 2020, Azerbaijan liberatedits lands from enemy occupation. The 44-day war, which ended with the declaration signed by Azerbaijan and Armenia, was considered a great victory for Azerbaijan, and a heavy defeat for Armenia. While the geopolitical equation in the South Caucasus was reshaped after the Second Karabakh War, Azerbaijan's victory opened up new areas of cooperation, new transport corridors and points of contact in the region. For this purpose, first of all, the geographical boundaries and economic resources of the "Karabakh" region are investigated. In this way, it is tried to understand what the mentioned region means for both countries. Then, the region in question is discussed with its historical integrity in terms of demographic structure and ruling political powers. At this point, it is investigated whether the mentioned parties are the real source of the problem and the role of other possible actors that triggered the problem. Then, the steps taken towards the solution of the mentioned problem, violations, the Second Karabakh war, the achieved results and the peace process are evaluated. In addition, our study examines the importance of peace for the countries ofthe region.

The article focuses on the implementation of the declaration after the Second Karabakh war, as well as the long-term peace-building work of Azerbaijan in the region by using the "principle of coercion", which is accepted as international principles. In the article, the step of ending the occupation of Azerbaijan, restoration of territorial integrity and complete restoration of Azerbaijan's sovereignty was studied.

**Key words:** *Patriotic War, Karabakh, Azerbaijan, Armenia, restoration of sovereignty.*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.